

Köçmüşəm mən könlünün hər küncünə can olmuşam.
Mən sənə verməklə canı sanma peşiman olmuşam.

Kimsə bilməz bir ömürdür, ömrü sürdüm zərrətək
Son nəfəsdə mən sənə yetməkçün ümman olmuşam.

Hər cəfa gördükcə səndən mən vəfa göstərmişəm
Nə səbəbdən bir ömür hicranə ünvan olmuşam.

Lal baxışlarla süzər hicran məni gündüz-gecə
Bixəbər bilməz məgər onsuzda viran olmuşam?!
Dərdimə dərman gəzəndən dərdi loğmanlar gəzər
Dərdimə dərman bulub həm dərdə dərman olmuşam.

Ey nigarım, olma sən məndən nigaran çünki mən
Sən nigaran olduğundandır nigaran olmuşam.

Bir də Bərraq incini axtarma dəryadən kənar
İnci bilməzsən nədir, çoxdandı giryan olmuşam.

Tahirə Bərraq